Gəncə Dövlət Universiteti

Rektor: Y.Ə.Yusibov

GDU Elmi Şurasının 24 iyun 2023-cü il tarixli iclasında (Pr. №09) təsdiqlənmiş

# KEYFİYYƏT TƏMİNATI VƏ QİYMƏTLƏNDİRMƏ KOMİSSİYASININ ƏSASNAMƏSİ

GƏNCƏ - 2023

# BİRİNCİ HİSSƏ

## Məqsəd, əhatəlik, əsas və anlayışlar

### Məqsəd

**Maddə 1.** "Əsasnamə"nin məqsədi "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları"na uyğun olaraq yaradılmış və keyfiyyətin qiymətləndirilməsi və təmin edilməsi üzrə tədqiqatların və akkreditasiya işlərinin təşkili və icrasına cavabdeh olan Gəncə Dövlət Universitetinin "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası"nın (Bundan sonra Keyfiyyət Komissiyası) iş qaydalarını və prinsiplərini tənzimləməkdən ibarətdir.

### Əhatəlik

**Maddə 2.** Bu Əsasnamədəki qayda və prinsiplər Gəncə Dövlət Universitetinin Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının universitetinin strukturunda həyata keçirəcəyi keyfiyyət təminatı sistemi, sertifikatlaşdırma, akkreditasiya, audit və keyfiyyət prosesləri ilə bağlı bütün tədqiqat və fəaliyyət prosedurlarını əhatə edir.

### Əsas

**Maddə 3.** Bu Əsasnamədəki qayda və prinsiplər Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.28-ci maddəsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 493 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisəsinin akkreditasiya qaydaları"na, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2022-ci il 30 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"na və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları"na, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"a (ESG), Gəncə Dövlət Universitetinin Nizamnaməsinə, Keyfiyyətin Təminatı Mərkəzinin Nizamnaməsinə, qüvvədə olan digər qanun və Sərancamlara əsasən hazırlanmışdır.

## Anlayışlar

**Maddə 4. Bu Qayda və prinsiplərdə keçən anlayışlar:**

**Akkreditasiya:** Kənar qiymətləndirici qurum tərəfindən təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə aparılan və təhsil müəssisəsinin statusunun, hər bir ixtisas (proqram) üzrə təhsilalanların say həddinin müəyyən edilməsi və qiymətləndirməsini aparan və onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradan prosedur.

**Akkreditasiya Meyarları:** Universitetin fəaliyyətinin və təhsil proqramlarının icrasının dövlət təhsil standartlarına uyğunluğunun qiymətləndirilməsi üzrə ölçülər.

**Akkreditasiya Şəhadətnaməsi:** Təhsildə Keyfiyyət Təminatı Agentliyinin töfsiyyəsisi əsasında "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan və elektron formada verilən təhsil müəssisəsinin dövlət akkreditasiyası haqqında sənəd.

**Akkreditasiya Şurası:** Akkreditasiyanın nəticələrinə dair qərar qəbul etmək səlahiyyətinə malik olan orqan.

**Ali Təhsil Keyfiyyət Şurası:** Ali təhsil müəssisələrində keyfiyyətin qiymətləndirilməsi, təminat tədqiqatlarının və akkreditasiya tədqiqatlarının tənzimlənməsi və icrasına cavabdeh olan şura.

**Apellyasiya Komissiyası:** Agentlik tərəfindən yaradılan və Akkreditasiya Komissiyasının fəaliyyətinə dair şikayətlərə baxan kollegial orqan.

**Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi:** Ali təhsil üçün müəyyən edilmiş Milli Kvalifikasiyalar Çərçivəsi.

**Beynəlxalq akkreditasiya:** Xarici ölkə və təşkilatın keyfiyyət təminatı qurumu tərəfindən hazırlanmış qayda və meyarlar əsasında keçirilən təhsilin keyfiyyətinə təminat yaradan prosedur.

**Bölmənin Daxili Qiymətləndirmə Hesabatı:** Universitet daxilində akademik və inzibati vahidlər tərəfindən vahid əsasda ildə bir dəfə hazırlanacaq və Özünütəhlil Hesabatının hazırlanmasında istifadə ediləcək qiymətləndirmə hesabatı.

**Bölmənin Fəaliyyət Planı:** Universitet daxilində akademik və inzibati vahidlər tərəfindən vahid əsasda müəyyən edilmiş keyfiyyət hədəflərinə çatmaq üçün təqib ediləcək yol xəritəsi.

**Bölmənin Keyfiyyət Komissiyası:** Universitetin akademik və inzibati bölmələrində keyfiyyət təminatı tədqiqatlarının icrasına cavabdeh olan komissiya.

**Daxili Qiymətləndirmə:** Universitetin təhsil, tədqiqat, sosial töhfə, beynəlmilləşmə və idarəetmə sahələrində həyata keçirilən institusional fəaliyyətlərinin və təkmilləşdirilməsi tədbirlərinin təyin edilmiş qiymətləndiricilər tərəfindən keyfiyyətin qiymətləndirilməsi prosesi.

**Elmi Şura:** Gəncə Dövlət Universitetinin Elmi Şurası.

**Xarici Qiymətləndirmə:** Universitetin təhsil, tədqiqat, sosial töhfə, beynəlmilləşmə və idarəetmə sahələrində həyata keçirilən institusional fəaliyyətlərinin və keyfiyyətinin Təhsildə Keyfiyyət Təminatı Agentliyi və ya Ali Təhsil Şurası tərəfindən tanınan müstəqil Keyfiyyətin Qiymətləndirilməsi Qeydiyyatı Sertifikatı olan kənar qiymətləndirmə qurumları tərəfindən həyata keçirilən kənar qiymətləndirmə prosesi.

**Xarici Qiymətləndirmə Hesabatı:** Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən tanınan, müstəqil Keyfiyyətin Qiymətləndirilməsi Qeydiyyatı Sertifikatı olan qiymətləndirmə qurumları və təşkilatları tərəfindən həyata keçirilən xarici qiymətləndirmə prosesinin sonunda hazırlanan hesabat.

**Xarici Qiymətləndirmə və Akkreditasiya Qurumları:** Ölkədə və ya xaricdə fəaliyyət göstərən və Ali Təhsil Şurası tərəfindən tanınan Keyfiyyətin Qiymətləndirilməsi Qeydiyyatı Sertifikatı olan kənar qiymətləndirmə qurumları.

**Keyfiyyət:** Hər hansı bir obyektin (məhsulun və ya xidmətin) konkret müəyyən olunan və nəzərdə tutulan ehtiyaclara, standartlara cavab vermə qabiliyyətini özündə əks etdirən xüsusiyyət və əlamətlərin cəmi.

**Keyfiyyət Fəaliyyət Planı:** Universitetin Strateji Planına uyğun olaraq təklif etdiyi xidmətlərin və proseslərin təkmilləşdirilməsində izləniləcək Keyfiyyət Komissiyası tərəfindən müəyyən edilmiş keyfiyyət yol xəritəsi və maraqlı tərəflərdən alınan rəylər.

**Keyfiyyət Komissiyası:** Təhsildə Keyfiyyət Təminatı Agentliyinin müəyyən etdiyi prosedur və prinsiplər çərçivəsində, universitetin strateji planına və məqsədlərinə uyğun olaraq, göstərilən xidmətlərin qiymətləndirilməsinə, daxili və xarici keyfiyyət təminatı sisteminin qurulmasına, fəaliyyət göstəricilərinin və ya quruma xas olan əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsinə, bu çərçivədə araşdırmaların Elmi Şuraya təqdim edilməsinə və təsdiqlənmiş qərar və fəailiyyətlərin ictimaiyyətlə paylaşılmasına məhsul komissiyadır. Gəncə Dövlət Universitetində bu komissiya "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası" adlanır.

**Keyfiyyət təminatı:** Universitetin keyfiyyət proseslərini keyfiyyət standartlarına uyğun olaraq tam yerinə yetirdiyinə əmin olmaq üçün görülən bütün planlaşdırılmış və sistematik tədbirlər.

**Keyfiyyət Təminatı Sistemi:** Universitetin təhsil, tədqiqat və sosial töhfə fəaliyyəti və inzibati xidmətlərin daxili və xarici keyfiyyət təminatı, sertifikatlaşdırma və akkreditasiya prosesləri ilə bağlı prinsiplər.

**Keyfiyyət Təminatı və Akkreditasiya Koordinatorluğu**: Universitet daxilində keyfiyyət, akademik qiymətləndirmə və akkreditasiya proseslərini koordinasiya edən qurum. Gəncə Dövlət Universitetində bu koordinatorluğu Keyfiyyətin Təminatı Mərkəzi həyata keçirir.

**Özünütəhlil Hesabatı:** Keyfiyyət Komissiyası tərəfindən hər il hazırlanan daxili qiymətləndirmə hesabatı.

**Proqram akkreditasiyası:** Müəyyən bir sahədə müstəqil kənar qiymətləndirmə və akkreditasiya orqanları tərəfindən müəyyən edilmiş akademik və sahəyə aid standartların Universitet daxilindəki proqramlar tərəfindən yerinə yetirilib-yetirilmədiyini ölçən xarici qiymətləndirmə və keyfiyyət təminatı prosesi.

**Proqram qiymətləndirilməsi:** Ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sisteminin bir hissəsi kimi proqramların qiymətləndirilməsi ilə bağlı araşdırmalar.

**Prorektor:** Gəncə Dövlət Universitetinin keyfiyyət təminatı sistemindəki fəaliyyətlərə cavabdeh olan rektor müavini.

**Proses performans göstəriciləri:** Keyfiyyət Komissiyası tərəfindən müəyyən edilmiş keyfiyyətin məqsəd və vəzifələrinin ölçülməsini təmin edən alətlər.

**Rektor:** Gəncə Dövlət Universitetinin rektoru.

**Strateji Plan:** Universitet tərəfindən illər üçün hazırlanmış inkişaf planı.

**Strateji planlaşdırma:** Universitetin inkişaf planları, proqramları, müvafiq qanunvericilik aktları və qəbul etdikləri əsas prinsiplər çərçivəsində gələcəyə missiya və baxışlarını yaratmaq, strateji hədəflər və ölçülə bilən hədəfləri müəyyən etmək, onların fəaliyyətini əvvəlcədən müəyyən edilmiş göstəricilərə uyğun olaraq ölçmək, bu prosesi izləmək və qiymətləndirmək üçün iştirakçı üsullarla strateji planın hazırlanması.

**Strateji təhlil, qiymətləndirmə və monitorinq şöbəsi**: Gəncə Dövlət Universitetində strateji təhlil, qiymətləndirmə və monitorinq işini aparan şöbə.

**Təhsildə Keyfiyyət Təminatı Agentliyi:** Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirən publik hüquqi şəxsdir.

**Təkmilləşdirmə hesabatı:** Bölmə keyfiyyət komissiyaları tərəfindən qəbul edilmiş qərarlara uyğun olaraq həyata keçirilən keyfiyyətin yaxşılaşdırılması işlərinə dair hər ilin sonunda hazırlanan hesabat.

**Tələbə nümayəndəsi:** Gəncə Dövlət Universiteti Elmi Şurasının müəyyən etdiyi prinsiplərə uyğun olaraq seçilən tələbə və ya tələbələr.

**Tənzimləmə:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 493 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisəsinin akkreditasiya qaydaları" və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2022-ci il 30 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları"na əsasən tənzimlənir.

**Universitet**: Gəncə Dövlət Universiteti.

## İKİNCİ HİSSƏ

## Keyfiyyət Komissiyanın quruluşu, iş prinsipləri, vəzifə və məsuliyyətləri

**Maddə 5. Keyfiyyət Komissiyanın quruluşu:**

5.1. Keyfiyyət Komissiyası daxili qiymətləndirmə, sertifikatlaşdırma, akkreditasiya və keyfiyyətin təminatı üzrə tədqiqatların aparılması üçün ən azı 31 (otuz bir) nəfər üzvdən ibarət olur.

5.2. Rektor, prorektorlar, rektorun baş müşaviri, Azad Həmkarlar İttifaqı Komitəsinin sədri, Keyfiyyətin Təminatı Mərkəzinin müdiri, İnnovasiyalar Departamentinin direktoru, Tədris Departamentinin direktoru, İnformasiya və Kommunikasiya Texnologiyaları şöbəsinin müdiri, Hüquq şöbəsinin müdiri, Mühasibatlıq şöbəsinin müdiri, Strateji təhlil, qiymətləndirmə və monitorinq şöbəsinin müdiri və fakültə dekanları Keyfiyyət Komissiyasının dəyişilməz daimi üzvləri olur.

5.3. Kafedraları təmsil edən, eyni fakültə və kafedradan olmayan 5 nəfər üzv, 2 nəfər tələbə nümayəndəsi, 1 nəfər məzun və 1 nəfər katib universitet Elmi Şurası tərəfindən seçilir.

5.4. Keyfiyyət Komissiyasının tərkibi aşağıdakı kimi olur:

a) Rektor

b) Prorektorlar

c) Rektorun baş müşaviri
d) Azad Həmkarlar İttifaqı Komitəsinin sədri
e) Keyfiyyətin Təminatı Mərkəzinin müdiri
f) İnnovasiyalar Departamentinin direktoru
g) İnformasiya və Kommunikasiya Texnologiyaları şöbəsinin müdiri
h) Tədris Departamentinin direktoru
i) Hüquq şöbəsinin müdiri
j) Mühasibatlıq şöbəsinin müdiri
k) Strateji təhlil, qiymətləndirmə və monitorinq şöbəsinin müdiri
l) Fakültə dekanları
m) Kafedraları təmsil edən, eyni fakültə və kafedradan olmayan və Elmi Şura tərəfindən seçilən 5 nəfər üzv
n) Elmi Şura tərəfindən seçilən 2 nəfər tələbə
o) Elmi Şura tərəfindən seçilən 1 nəfər məzun
p) Elmi Şura tərəfindən seçilən 1 nəfər katib

5.5. Keyfiyyət Komissiyanın tərkibi Elmi Şurada təsdiqlənir.

5.6. Keyfiyyət Komissiyasının sədri olur.

5.7. Rektor Keyfiyyət Komissiyasının sədri olur.

5.8. Keyfiyyət Komissiyasının sədrinin iki müavini olur.

5.9. Rektorun baş müşaviri və rektorun təyin etdiyi prorektor Keyfiyyət Komissiyasının sədr müavinləri olur.

5.10. Rektor olmadıqda, Keyfiyyət Komissiyanın seçdiyi müvafiq sədr müavini, komissiyanın sədri olur.

5.11. Keyfiyyət Komissiyanın işi Keyfiyyətin Təminatı Mərkzi tərəfindən dəstəklənir və koordinasiya edilir.

5.12. Keyfiyyət Komissiyasına tabe olmaqla sahələr üzrə Keyfiyyət alt komissiyaları yaradılır.

**Maddə 6. Keyfiyyət Komissiyanın üzvlük müddəti və bitməsi:**

6.1. Keyfiyyət Komissiyasının üzvlərinin səlahiyyət müddəti 2 (iki) ildir.

6.2. Tələbə nümayəndəsinin səlahiyyət müddəti 1 (bir) ildir.

6.3. Keyfiyyət Komissiyası üzvlüyünü Elmi Şura bitirə bilər.

6.4. Keyfiyyət Komissiya üzvü öz ərzəsinə əsasən üzvülükdən azad ola bilməz.

6.5. Üzrlü səbəblər olmadan bir il ərzində üç dəfə iclasda iştirak etməyən, xəstəlik, bədbəxt hadisə və ya hər hansı digər səbəbdən altı aydan artıq müddətdə öz vəzifə səlahiyyətlərini yerinə yetirə bilməyən üzvlərin üzvlük

müddətinin bitməsini gözləmədən onların üzvlüyünə avtomatik olaraq Elmi Şura tərəfindən xitam verilir.

6.6. Keyfiyyət Komissiyasının üzvlərinin sayı hər hansı səbəbdən azaldıqda Keyfiyyət Komissiyasının təklifi ilə yeni üzv ən geci bir ay müddətində Elmi Şura tərəfindən təsdiqlənir.

6.7. Elmi Şura tərəfindən seçilən üzvlərin üzvlüyünə xitam verildikdə isə Elmi Şura yeni üzv seçir və təstiqləyir.

6.8. Keyfiyyət Komissiyanın tərkibi müvafiq üzvülük müddətinin bitməsinə uyğun olaraq yanvar ayında keçirilən Elmi Şurada yenidən təsdiqlənir.

**Maddə 7. Keyfiyyət Komissiyanın iş proseduru və prinsipləri:**

7.1. Keyfiyyət Komissiyası rektorun sədrliyi ilə toplanır.

7.2. Rektor olmadıqda iclasa prorektor (sədr müavini) sədrlik edir.

7.3. Keyfiyyət Komissiyası sədrin müəyyən etdiyi məkanda və tarixlərdə ildə 4 (dörd) dəfədən az olmayaraq toplanır.

7.4. Zəruri hallarda rektor istənilən vaxt Keyfiyyət Komissiyasını iclasa çağıra bilər.

7.5. Keyfiyyət Komissiyası üzvlərinin mütləq əksəriyyətinin tələbi ilə iclas çağrıla bilər.

7.6. Keyfiyyət Komissiyası üzvlərinin ümumi sayının mütləq çoxluğu ilə toplanır.

7.7. İclasın gündəliyi Keyfiyyət Komissiyası sədrinin, Keyfiyyət Koordinatorluğunun və Keyfiyyət Komissiyasının yazılı təklifləri ilə formalaşır.

7.8. İclasın gündəliyi haqqında məlumat Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən üzvlərə çatdırılır.

7.9. İclasda iştirak edən üzvlərin səs çoxluğu ilə qərarlar qəbul edilir.

7.10. Səsvermə açıq üsulla həyata keçirilir.

7.11. Səslər bərabər olduqda, qərar Sədrin səs verməsi istiqamətində qəbul edilmiş hesab olunur.

7.12. Keyfiyyət Komissiyası, lazım gələrsə, komissiya üzvlərindən başqa, rəhbər işçiləri, akademik və inzibati heyəti öz fikirlərini bildirmək üçün iclasa qonaq kimi dəvət edə bilər.

7.13. Keyfiyyət Komissiyasının katibi tərəfindən bütün iclasların kargüzarlıq işləri həya keçirilir və arxivləşdirilir.

**Maddə 8. Keyfiyyət Komissiyanın vəzifə və öhtəlikləri:**

8.1. Universitetin Strateji Planında müəyyən edilmiş məqsədlər çərçivəsində fəaliyyət göstəricilərinə nəzarət etmək, yeni hədəflər təyin etmək və bu çərçivədə aparılacaq araşdırmaları həyata keçirmək.

8.2. Keyfiyyət Komissiyası qeyri-komissiya üzvlərindən ibarət alt komissiyalar, işçi qrupları və məsləhət şuraları yarada bilər.

8.3. Alt komissiyalar, işçi qrupları və məsləhət şuraları Keyfiyyət Komissiyanın səlahiyyəti çərçivəsində və onun tapşırıqlarına uyğun fəaliyyət göstərir.

8.4. Rektor zərurət yarandıqda akademik və inzibati heyəti komissiyanın iş prosesinə cəlb edə bilər.

8.5. Keyfiyyət Komissiyasına ofis və dəstək xidmətləri bütün struktur və bölmələr tərəfindən həyata keçirilir.

8.6. Keyfiyyət Komissiyası Keyfiyyət Təminatı Sistemi çərçivəsində hər cür məlumat və sənədləri universitetin bütün struktur və bölmələrindən tələb edə bilər.

8.7. Keyfiyyət Komissiyanın əsas vəzifələri;

- Universitetin Strateji Planını, Fəaliyyət Proqramını hazırlamaq və fəaliyyət keyfiyyət göstəricilərini izləmək.
- Təhsil və tədqiqat fəaliyyətinin və inzibati xidmətlərin keyfiyyətini qiymətləndirmək və yaxşılaşdırmaq üçün universitetin Strateji Planına və məqsədlərinə uyğun olaraq qurumun daxili və xarici keyfiyyət təminatı sistemini yaratmaq.
- Universitet daxili institusional göstəriciləri müəyyən etmək və keyfiyyət sisteminin işləməsini izləmək.
- Təhsildə Keyfiyyət Təminatı Agentliyinin müəyyən etdiyi prosedur və prinsiplərə uyğun olaraq həyata keçirilən izləmə və yoxlama işləri haqqında məlumatları rektora və Elmi Şuraya təqdim etmək.
- Keyfiyyət Təminatı Sistemi fəaliyyətlərinin universitetin Strateji Planına uyğun olaraq həyata keçirilməsini və qiymətləndirməsini təşkil və təmin etmək.
- Daxili qiymətləndirmə araşdırmaları aparmaq, institusional qiymətləndirmə və keyfiyyətin yaxşılaşdırılması tədqiqatlarının nəticələrini özündə əks etdirən illik daxili qiymətləndirmə hesabatını hazırlamaq.
- İllik daxili qiymətləndirmə hesabatlarını rektora və Elmi Şuraya təqdim etmək.
- Elmi Şurada təsdiq edilmiş illik daxili qiymətləndirmə hesabatını universitetin internet səhifəsində ictimaiyyətlə paylaşmaq.

- Xarici qiymətləndirmə prosesi zamanı lazımi hazırlıqları görmək, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin və digər kənar qiymətləndirmə qurumlarına hər cür məlumat və sənəd dəstəyi vermək.
- Elm və Təhsil Nazirliyinin qərar və əmrlərini icra etmək.
- Təhsildə Keyfiyyət Təminatı Agentliyinin qərarlarını həyata keçirmək.
- Keyfiyyət Təminatı Sisteminin İnteqrasiya Edilmiş Keyfiyyət Təminatı İdarəetmə modelinə uyğun fəaliyyət göstərib-göstərməməsini izləmək.
- Keyfiyyət Təminatı Sistemində "PİNT" dövrü metodunun tətbiqinə nəzarət və diqqət yetirmək.
- Universitetin strateji planı və məqsədlərinə uyğun olaraq, akademik və inzibati xidmətlərin qiymətləndirilməsi, keyfiyyətinin yüksəldilməsi və akkreditasiya prosesində görüləcək hər cür işin həyata keçirilməsini təmin edir.
- Universitetin bütün müvafiq qərarlarını müvafiq şöbə, proqram və alt bölmələrinə elan etmək, onların icrasına töhfə vermək və nəticələrin yoxlanmasına cavabdehdir.
- Fakültə, departament, şöbə, mərkəz və bölmələr daxilində fəaliyyət və xidmətlərin qiymətləndirilməsi, keyfiyyətin yüksəldilməsi və akkreditasiya prosesində görüləcək bütün növ işləri Keyfiyyət Komissiyanın fəaliyyət qaydalarına uyğun olaraq komissiyaya tabe olan qurumlardakı işçi qrupları icra edir.
- Universitetin Keyfiyyət Təminatı Sistemi ilə bağlı daxili və kənar qiymətləndirmə qurumları tərəfindən aparılacaq sertifikatlaşdırma və qiymətləndirmə fəaliyyətləri üçün lazımi hazırlıqları görür və bu qurumlara hər cür dəstək verməni təmin edir.
- Fakültə, departament, şöbə, mərkəz və bölmələrin təkmilləşdirmə aspektlərini müəyyən edir.
- Fakültə, departament, şöbə, mərkəz və bölmələrin məqsəd və hədəflərinin davamlı inkişafına kömək edir.
- Fakültə, departament, şöbə, mərkəz və bölmələrin akademik və inzibati səmərəliliyinin ölçülməsini və qiymətləndirilməsini həyata keçirir.
- Fakültə, departament, şöbə, mərkəz və bölmələrin tədqiqat və inkişaf səmərəliliyinin artırılması üçün araşdırmalar aparır və təkliflər verir (layihə, xarici maraqlı tərəflərlə əməkdaşlıq və s.)
- Fakültə, departament, şöbə, mərkəz və bölmələrin inzibati və akademik sahələrdə inkişafı üçün təkliflər hazırlayır və təqdim edir.
- Universitet Strateji Planında göstərilən siyasət və strategiyaların həyata keçirilməsi üçün monitorinq və qiymətləndirmə işləri aparır.

- Öz işi üçün zəruri olan ölçmə və qiymətləndirmə alətlərini (formalar, anketlər və s.) hazırlayır.
- Universitetdə keyfiyyət mədəniyyətinin yayılması üçün tədbir və fəaliyyətlərin inkişafı üçün çalışır (Keyfiyyət Gününün təşkili, keyfiyyət yönümlü seminarlar, akademik və inzibati heyət və tələbələrlə qarşılıqlı görüşlər və s.).
- Özünütəhlil Hesabatını hazırlayır, bu hesabatı Keyfiyyətin Təminatı Mərkəzinə, rektora və Elmi Şuraya təqdim edir.

## ÜÇÜNCÜ HİSSƏ

## Keyfiyyət üzrə alt komissiyaların quruluşu, müddəti, vəzifələri, iş üsulları və əsasları

### Maddə 9. Keyfiyyət üzrə alt komissiyaların quruluşu və müddəti:

9.1. Keyfiyyət üzrə alt komissiyaların hər birinin tərkibi rektor tərəfindən seçilmiş 8 (səkkiz) nəfərdən ibarət olur.

9.2. Keyfiyyət üzrə alt komissiyaların tərkibi aşağıdakı kimi formalaşır;

- Keyfiyyət Komissiyasının tərkibində olan 1 (bir) nəfər üzvdən sədr,
- Keyfiyyət üzrə alt komissiyaların fəaliyyət sahəsinə uyğun olaraq çalışan kafedra müdirindən və ya şöbə müdirindən 1 (bir) nəfər üzv,
- Universitetin müxtəlif fakültə və kafedralarında çalışan professor-müəllim heyətindən 4 (dörd) nəfər üzv,
- Keyfiyyət üzrə alt komissiyaların fəaliyyət sahəsinə uyğun inzibati heyətdən 1 (bir) nəfər üzv,
- Universitetdə təhsil alan tələbə nümayəndəsindən 1 (bir) nəfər üzvdən ibarət olur.

9.3. Keyfiyyət üzrə alt komissiyaların üzvləri rektor tərəfindən 2 il müddətinə təyin edilir.

9.4. Keyfiyyət üzrə alt komissiyaların səlahiyyət müddəti bitmiş üzvü yenidən üzv təyin oluna bilər.

9.5. Keyfiyyət üzrə alt komissiya üzvü hər hansı bir səbəbdən asılı olmayaraq altı aydan artıq vəzifəsini icra edə bilmirsə, vəzifəsi başa çatmış hesab edilir.

9.6. Keyfiyyət üzrə alt komissiyalarda üzvlük son tarixdən əvvəl boşaldığı halda, qalan müddəti tamamlamaq üçün eyni üsulla yenisi təyin edilir.

9.7. Keyfiyyət üzrə alt komissiyalar rektorun nəzarəti ilə Keyfiyyət Komissiyasına bağlı olaraq fəaliyyət göstərir.

9.8. Keyfiyyət üzrə alt komissiyaların fəaliyyət proqramları və iş planları Keyfiyyət Komissiyası tərəfindən müəyyən edilir.

9.9. Keyfiyyət üzrə alt komissiyalar universitetin tədris, təlim, tədqiqat, sosial tövhə, beynəlmilləşmə, inzibati idarə etmə və digər sahələrini əhatə edən keyfiyyət təminatı sisteminə uğyun yaradılır.

9.10. Keyfiyyət Komissiyasına bağlı keyfiyyət üzrə alt komissiyalar;

1. Təhsil və təlimin keyfiyyətinə nəzarət komissiyası
2. Tədqiqat və elmi inkişaf keyfiyyətinə nəzarət komissiyası
3. İdarəetmə və xidmət keyfiyyətinə nəzarət komissiyası
4. Cəmiyyət və sosial töhfə keyfiyyətinə nəzarət komissiyası
5. Beynəlmiləlləşmə və rəqabətlilik keyfiyyətinə nəzarət komissiyası

**Maddə 10. Keyfiyyət üzrə alt komissiyaların iş üsulları və əsasları**

10.1. Keyfiyyət üzrə alt komissiyalar öz işlərini və hesabatlarını bu "Əsasnamə" müddəalarına uyğun həyata keçirir və hazırlayırlar.

10.2. Keyfiyyət üzrə alt komissiyalar hər il müntəzəm olaraq növbəti təqvim ilinin başlanmasına qədər öz illik daxili qiymətləndirmə hesabatını, növbəti ilin fəaliyyət planını hazırlayır və icra edirlər.

10.3. Keyfiyyət üzrə alt komissiyalar öz işlərində və hesabatlarında universitet səviyyəsində standartı təmin və təşkil etmək üçün digər sahələr üzrə komissiyalarla əməkdaşlıq edərək formalar, cədvəllər, tablolar, sixemlər və s. standart sənədləri hazırlayırlar.

10.4. Keyfiyyət üzrə alt komissiyalar bu Əsasnamədə müəyyən edilmiş vəzifələri və öhtəlikləri ilə bağlı işlərin nəticələrini hesabat formasında Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasına təqdim edirlər.

**Maddə 11. Keyfiyyət üzrə alt komissiyaların vəzifə və öhtəlikləri**

11.1. Təhsil və təlimin keyfiyyətinə nəzarət komissiyasının vəzifə və öhtəlikləri;

- Təhsildə keyfiyyətlə bağlı akademik bölmələrin təlim-tədris proseslərini və təcrübələrini izləmək,
- Təhsil sahəsi ilə bağlı daxili və xarici qiymətləndirmə tədqiqatlarında iştirak etmək,
- Tələbə mərkəzli öyrənmə, tədris və qiymətləndirmə işlərini planlaşdırmaq,
- Tələbənin qeydiyyatdan məzuniyyətə qədər olan müddətdə daha səmərəli təhsil və təlim xidmətləri almasına imkan verəcək işlər həyata keçirmək,

- Universitetin təlim-tədris prosesinin səmərəli həyata keçirilməsi və təhsil məqsədlərinə nail olunması üçün professor-müəllim heyətinin keyfiyyət və kəmiyyət göstəriciləri ilə bağlı təkliflər vermək,
- Universitetin təhsil səmərəliliyini artıracaq tədris mühitinin (sinif otaqları, kompüter laboratoriyaları, kitabxana, iclas zalı, atelye, klinika, laboratoriya, tətbiq sahələri, sərgi sahələri, fərdi iş sahəsi və s.) adekvatlığını və uyğunluğunu araşdırmaq və təkmilləşdirilməsi üçün hesabatlar hazırlamaq.
- İkili ixtisas və yan ixtisas proqramlarının yaradılması və iştirakına dair təkliflər vermək,
- Proqramları hər il müntəzəm olaraq nəzərdən keçirmək, qiymətləndirmək,
- Proqramların davamlılığını, yenilənməsini və təkmilləşdirilməsini təmin etmək,
- Proqramların hazırlanmasında daxili və xarici maraqlı tərəflərin proseslərdə iştirakını təmin etmək,
- Akademik bölmələrin fəaliyyət planları və bu məqsədlərlə bağlı proses performans göstəriciləri ilə müəyyən edilmiş ölçülə bilən təhsil və təlim məqsədlərinin müəyyən edilməsinə töhfə vermək və onların mütəmadi olaraq nəzərdən keçirilməsini təmin etmək,
- Daxili və xarici qiymətləndirmə hesabatlarında əks olunan və təkmilləşdirilməsi lazım olan sahələrlə bağlı təkmilləşdirmə işlərinə dair təkliflər vermək,
- Qurumun Özünütəhlil Hesabatının hazırlanması sahəsində dəstək göstərmək,
- Rektor, Elmi Şura, Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən verilən digər vəzifələri yerinə yetirmək.

11.2. Tədqiqat və elmi inkişaf keyfiyyətinə nəzarət komissiyasının vəzifə və öhtəlikləri;

- Universitetin tədqiqat strategiyaları, məqsədləri və bu məqsədlərə çatmaq yolları ilə bağlı araşdırmalar aparmaq,
- Universitetin tədqiqat infrastrukturunu qiymətləndirmək və fənlərarası tədqiqatlar apara bilən infrastrukturların yaradılması üçün təşviq mexanizmlərini inkişaf etdirmək,
- Universitetin milli və beynəlxalq reytinq agentlikləri tərəfindən edilən qiymətləndirmənin nəticələrini araşdırmaq və tədqiqat performansını artırmaq üçün təkliflər vermək,
- Universitetin elmi işçi heyətinin səriştəsi, inkişafı və davamlılığı üzərində işləmək və izləmək,

- Tədqiqat və inkişaf fəaliyyətini dövri olaraq və məlumatlar əsasında ölçmək və qiymətləndirmək, nəticələri dərc etmək və təşviq mexanizmi yaratmaq,
- Tədqiqat və inkişafla bağlı daxili və xarici qiymətləndirmə hesabatlarında təkmilləşdirməyə ehtiyacı olan sahələr üzrə lazımi araşdırmalar aparmaq,
- Universitetin Özünütəhlil Hesabatının hazırlanması sahəsində dəstək vermək,
- Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən müəyyən edilmiş inkişafa açıq sahələr üzrə araşdırmalar aparmaq,
- Fəaliyyət planları və bu hədəflərlə əlaqəli proses performans göstəriciləri ilə müəyyən edilmiş vahidlərin ölçülə bilən araşdırma-təkmilləşdirmə ilə əlaqəli hədəflərini müəyyən etmək və onların müntəzəm olaraq nəzərdən keçirilməsini təmin etmək,
- Rektor, Elmi Şura, Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən verilən digər vəzifələri yerinə yetirmək.

11.3. İdarəetmə və xidmət keyfiyyətinə nəzarət komissiyasının vəzifə və öhtəlikləri;

- Universitetin Keyfiyyət Təminatı Sistemi, risklərin qiymətləndirilməsi və daxili nəzarət sistemi ilə bağlı araşdırmalar aparmaq,
- Universitetin Strateji Planına daxil edilmiş məqsəd, hədəf və proseslərlə bağlı fəaliyyətləri həyata keçirmək,
- Universitetin öz missiya və məqsədlərinə çatmaq üçün göstərdiyi səylərə uyğun olaraq idarəetmə fəaliyyətləri üzərində işləmək,
- Universitetin idarəetmə və inzibati vahidlərinin strukturunu qiymətləndirmək və yeniləmək,
- Universitetin insan resursları və insan resurslarının idarə edilməsi ilə bağlı qiymətləndirmə araşdırmaları aparmaq,
- Universitetin maliyyə resurslarının, daşınan və daşınmaz resurslarının təhsil, təlim və elmi-tədqiqat fəaliyyəti və inzibati xidmətlər üçün səmərəli, qənaətli və səmərəli istifadəsi ilə bağlı Strateji Plana uyğun olaraq işlərin aparılması,
- Universitetin informasiya idarəetmə sistemi proseslərinin dizaynını, təqibini və effektivliyini qiymətləndirmək və təkmilləşdirmə işləri aparmaq,
- İdarəetmənin effektivliyi və hesabatlılığı çərçivəsində qurumun keyfiyyət təminatı sisteminin xüsusiyyətlərini müəyyən etmək, səmərəliliyini ölçmək və təkmilləşdirmə işləri aparmaq,
- İdarəetmə sistemi və təkmilləşdirilməsi lazım olan sahələrlə bağlı daxili və xarici qiymətləndirmə hesabatlarında təkmilləşdirmə işlərinin aparılması,

- Universitetin Özünütəhlil Hesabatının hazırlanması sahəsində dəstək vermək,
- Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən müəyyən edilmiş inkişafa açıq sahələr üzrə araşdırmalar aparmaq,
- Bölmələrin fəaliyyət planları ilə müəyyən edilmiş inzibati proseslərlə bağlı ölçülə bilən məqsədləri, bu məqsədlərlə bağlı prosesin performans göstəricilərinin müəyyən edilməsini və mütəmadi olaraq nəzərdən keçirilməsini təmin etmək,
- Rektor, Elmi Şura, Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən verilən vəzifələri yerinə yetirmək.

11.4. Cəmiyyət və sosial töhfə keyfiyyətinə nəzarət komissiyasının vəzifə və öhtəlikləri;

- Universitet və cəmiyyət arasında əlaqələrin gücləndirilməsi məqsədilə daxili və xarici maraqlı tərəflərlə multidissiplinar tədqiqatları, institutlararası və beynəlxalq tərəfdaşlıqları, doktoranturaları, planlaşdırma seminarlarını və simpoziumları təşviq etmək,
- Universitet daxilində sosial töhfə mövzusunda maarifləndirmə işlərinin aparılması,
- Universitetin və regionun prioritet tədqiqat sahələrində aparılacaq işlərdə sosial töhfələrin verilməsi və sosial şüurun yaradılması ilə bağlı təkliflər vermək,
- Strateji Planda göstərilən sosial töhfə ilə bağlı hədəflər, fəaliyyət göstəriciləri və strategiyalarla bağlı təklif və qiymətləndirmələr vermək,
- Universitetin Özünütəhlil Hesabatının hazırlanması sahəsində dəstək vermək,
- Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən müəyyən edilmiş inkişafa açıq sahələr üzrə araşdırmalar aparmaq,
- Bölmələrin fəaliyyət planları ilə müəyyən edilmiş Sosial Töhfə araşdırmaları ilə bağlı ölçülə bilən hədəfləri, bu hədəflərlə əlaqəli proses performans göstəricilərini müəyyən etmək və onların mütəmadi olaraq nəzərdən keçirilməsini təmin etmək,
- Rektor, Elmi Şura, Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən verilən vəzifələri yerinə yetirmək.

11.5. Beynəlmiləlləşmə və rəqabətlilik keyfiyyəti üzrə ölçmə, qiymətləndirmə və monitorinq komissiyasının vəzifə və öhtəlikləri;

Universitetin beynəlmiləlləşmə modelini və siyasət araşdırmalarını izləmək, inkişaf etdirmək və dəstəkləmək,

- Universitetin beynəlmiləlləşmə ölçüsünün (kurikulum, tələbə mobilliyi, akademik mobillik, tədqiqat və inkişaf fəaliyyətləri üçün əməkdaşlıq və ya bunların bəzilərinin kombinasiyası) müəyyən edilməsi,
- Universitetin təhsil-tədris, tədqiqat-inkişaf və sosial töhfə funksiyalarının siyasət və modelə uyğun olaraq beynəlxalq anlayışla inteqrasiyası prosesinə töhfə vermək,
- Universitetin daxili maraqlı tərəflərinin xarici dil biliklərinin artırılması üçün işlərin planlaşdırılması,
- Universitetin Özünütəhlil Hesabatının hazırlanması sahəsində dəstək vermək,
- Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən müəyyən edilmiş inkişafa açıq sahələr üzrə araşdırmalar aparmaq,
- Beynəlxalq Əlaqələr şöbəsi ilə koordinasiyalı şəkildə işini davam etdirmək,
- Bölmələrin fəaliyyət planları ilə müəyyən edilmiş beynəlmiləlləşdirmə ilə bağlı ölçülə bilən hədəfləri, bu hədəflərə aid proses performans göstəricilərini müəyyən etmək və onların mütəmadi olaraq nəzərdən keçirilməsini təmin etmək,
- Rektor, Elmi Şura, Keyfiyyət Komissiyası və Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən verilən vəzifələri yerinə yetirmək.

## DÖRDÜNCÜ HİSSƏ

## Bölmə Keyfiyyət Komissiyalarının yaradılması, iş prinsipləri və əsasları, vəzifə və öhtəlikləri

**Maddə 12. Bölmə Keyfiyyət Komissiyalarının yaradılması:**

12.1. Gəncə Dövlət Universitetinin akademik və inzibati bölmələrinin keyfiyyət təminatı işlərinin aparılması üçün müvafiq bölmə rəhbərləri tərəfindən Bölmə Keyfiyyət Komissiyası yaradılır və Keyfiyyət Komissiyasına məlumat verilir.

12.2. Akademik bölmələrdə komissiya üzvləri dekan müavini, fakültə elmi şurasının katibi, tələbə nümayəndəsi, bölmədə mövcud olan hər bir kafedradan bir müəllim olur. Dekan müavini komissiyaya sədrlik edir və məlumatların toplanmasına və hazırlanmasına cavabdeh olur.

12.3. Departamentlərdə şöbə müdirləri, tədqiqat mərkəzləri üzrə direktor müavini və onlarda çalışan işçilər daxil olmaqla ən azı üç nəfərdən ibarət olur.

12.4. Bölmə Keyfiyyət Komissiyası üzvlərinin səlahiyyət müddəti 2 (iki) ildir. Səlahiyyət müddəti bitmiş üzv yenidən təyin oluna bilər.

12.5. Bölmə Keyfiyyət Komissiyası üzvlüyündə edilən dəyişikliklər haqqında beş iş günü ərzində Keyfiyyət Komissiyasına məlumat verilir.

12.6. Akademik və inzibati bölmələrin yüksək səviyyəli menecerləri, departamentlərin rəhbərləri keyfiyyət təminatı tədqiqatlarına hər cür dəstəyi verirlər.

12.7. Bölmə rəhbərləri Bölmə Keyfiyyət Komissiyasının işinə və fəaliyyətinə cavabdehdir.

12.8. Akademik və ya inzibati vahidlər zərurət olduqda birdən çox Bölmə Keyfiyyət Komissiyası yarada bilər.

**Maddə 13. Bölmə keyfiyyət komissiyalarının iş prinsipləri və əsasları:**

13.1. Bölmə Keyfiyyət Komissiyası adətən ayda ən azı bir dəfə, əks halda sədrin çağırışı və ya üzvlərinin mütləq əksəriyyətinin yazılı tələbi ilə toplanır.

13.2. İclasın gündəliyi Bölmə Keyfiyyət Komissiyası üzvlərinin yazılı tövsiyələri ilə formalaşır.

13.3. Komissiyanın sədri, menecerlər, akademiklər və inzibati heyət və kənar maraqlı tərəfləri zəruri hallarda onların rəylərini öyrənmək üçün Bölmə Keyfiyyət Komissiyasının iclasına dəvət edilə bilər.

13.4. Rektor, Keyfiyyət Komissiyasının sədri, Keyfiyyət üzrə alt komissiyaların rəhbərləri zəruri hallarda onların rəylərini öyrənmək üçün Bölmə Keyfiyyət Komissiyalarını iclasa dəvət edilə bilər.

13.5. Bölmə Keyfiyyət Komissiyası üzvlərin ümumi sayının mütləq səs çoxluğu ilə toplanır və iclasda iştirak edənlərin mütləq əksəriyyəti ilə qərarlar qəbul edir. Səsvermə açıq üsulla həyata keçirilir. Səslər bərabər olarsa, qərar Bölmə Keyfiyyət Komissiyası rəhbərinin səsi ilə qəbul edilmiş sayılır.

13.6. Üzrlü səbəb olmadan bir il ərzində 3 (üç) iclasa qatılmayan və ya xəstəlik, bədbəxt hadisə və ya hər hansı digər səbəbdən 6 (altı) aydan artıq müddət ərzində öz vəzifələrini yerinə yetirə bilməyən üzvlərin üzvlükləri müddətinin bitməsini gözləmədən avtomatik olaraq xitam verilir. Bunlardan və könüllü olaraq çıxmış şəxslərdən başqa, üzvlüyə səlahiyyət müddəti bitmədən xitam verilə bilməz.

13.7. Bölmə Keyfiyyət Komissiyaları iclaslar keçirir və lazimı məlumatları qeyd edir. Hər iclasdan sonra sənədləri 5 (beş) iş günü ərzində Keyfiyyət Komissiyasına göndərir.

13.8. İl ərzində qəbul edilmiş qərarlara uyğun olaraq həyata keçirilən keyfiyyətin yaxşılaşdırılması işlərinə dair Təkmilləşdirmə Hesabatını və

Özünütəhlil Hesabatını hazırlayır. İlin sonunda həmin hesabatları Keyfiyyət Komissiyasına göndərir.

**Maddə 14. Bölmə Keyfiyyət Komissiyalarının vəzifələri:**

14.1. Bu Əsasnamə çərçivəsində müəyyən edilmiş vəzifələrə uyğun olaraq müvafiq bölmədə keyfiyyət təminatı araşdırmaları aparmaq, icrasına nəzarət etmək və müvafiq bölmələrə hər cür dəstək vermək,

14.2. Universitetin strateji plan və məqsədlərinə uyğun olaraq, akademik və inzibati xidmətlərin qiymətləndirilməsi və keyfiyyətinin yüksəldilməsi ilə bağlı akademik və inzibati bölmələrdə hər cür iş görmək,

14.3. Akademik və inzibati vahidlərdə daxili qiymətləndirmə araşdırmalarının aparılmaq,

14.4. Bölmənin təhsil, təlim, tədqiqat, nəşr, sosial, mədəni, bədii, idman fəaliyyətləri və institusional inkişafı ilə bağlı məlumatlarından istifadə edərək illik Təkmilləşdirmə Hesabatını və Özünütəhlil Hesabatını hazırlamaq,

14.5. İl ərzində həyata keçiriləcək keyfiyyət tədbirləri çərçivəsində Bölmə Fəaliyyət Planını hazırlamaq və bölmə rəhbərinin rəsmi təsdiqindən sonra bölmənin internet səhifəsində dərc etmək,

14.6. Bölmə Fəaliyyət Planına uyğun olaraq bölmə üçün xüsusi Fəaliyyət Keyfiyyət Göstəricilərinin yaradılması və Keyfiyyət Komissiyasına göndərilmək,

14.7. Keyfiyyət Komissiyasının qərarlarını müvafiq bölmənin müvafiq proqramına/şöbələrinə elan etmək, müraciətləri izləmək və bu müraciətlərin nəticələrinə nəzarət etmək,

14.8. Öz bölmələrinə, digər bölmələrə və ümumilikdə universitetə aid məsələlərdə tənzimləyici, qabaqlayıcı və keyfiyyətin yaxşılaşdırılması və inkişafı üçün təkliflər vermək;

14.9. Təhsildə Keyfiyyət Təminatı Agentliyi üçün Keyfiyyət Komissiyası tərəfindən hazırlanacaq İnstitusional Özünütəhlil Hesabatını və digər hesabatları dəstəkləmək,

14.10. Xarici qiymətləndirmə işlərində müvafiq akademik və inzibati vahid üçün lazımi hazırlıqları görmək, kənar qiymətləndirmə qurumu, təşkilat və ya şuraya hər cür dəstək vermək,

14.11. Milli və beynəlxalq reytinq təşkilatları üçün Keyfiyyət Komissiyasının bütün işlərini dəstəkləmək, universitetin bu reytinqlərdə yüksəlməsi və vahid performans proqramlarında yer alması üçün lazımi təkmilləşdirmələri müəyyən etmək.

## BEŞİNCİ HİSSƏ
## Universitet daxili və xarici Keyfiyyət Təminatı Sisteminin yaradılması, hesabatlar və təqvim.

**Maddə 15. Keyfiyyət sistemlərinin yaradılmasına məsul:**

15.1. Keyfiyyət Komissiyası və rektor universitet daxilində həyata keçiriləcək daxili və xarici keyfiyyət təminatı sisteminin yaradılmasından məsuldur.

15.2. Keyfiyyət Komissiyası və rektor universitetin daxili və xarici qiymətləndirmə prosesinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

**Maddə 16. Daxili qiymətləndirmə hesabatı və təqvim:**

16.1. Keyfiyyət Komissiyası tərəfindən hər il universitetin təhsil və tədqiqat fəaliyyəti və onlara dəstək verən inzibati proseslər strateji plan, illik hesabat və fəaliyyət proqramı çərçivəsində qiymətləndirilir.

16.2. Keyfiyyət Komissiyası, alt komissiyalar, bölmə keyfiyyət komissiyaları və onlara dəstək verən inzibati xidmətlər tərəfindən alınan hesabatlara uyğun olaraq, təhsil-tədris və tədqiqat fəaliyyətləri daxil olmaqla, fəaliyyət proqramı və illik hesabat ilə inteqrasiya olunmuş bir quruluşda universitetin Özünütəhlil Hesabatını hazırlayır.

16.3. Universitet Özünütəhlil Hesabatı Keyfiyyət Komissiyası tərəfindən analiz və təhlil aparıdıqdan sonra müəyyən edilmiş təqvimə uyğun olaraq hər il yanvar-mart aylarında tamamlanır.

16.4. Universitet Özünütəhlil Hesabatı Keyfiyyət Komissiyası tərəfindən aprel ayının sonuna qədər universitet Elmi Şurasına göndərilir və təsdiqləndikdən sonra univesitet internet saytında dərc olunur.

16.4. İşçi Qrupları universitetin sahələr üzrə Keyfiyyət Təminatı Sistemini qiymətləndirir və qiymətləndirmə nəticələrini Hesabat şəklində hazırlayır.

16.5. İşçi Qrupları universitetin sahələr üzrə Özünütəhlil Hesabatlarını yanvar ayının sonuna qədər Keyfiyyət Komissiyasına təqdim edir.

16.6. Bölmə Keyfiyyət Komissiyaları bölmə daxili Keyfiyyət Təminatı Sistemini qiymətləndirir və qiymətləndirmə nəticələrini Hesabat şəklində hazırlayır.

16.7. Bölmə Keyfiyyət Komissiyaları bölmə daxili Özünütəhlil Hesabatnı yanvar ayının sonuna qədər Keyfiyyət Komissiyasına təqdim edir.

16.8. Keyfiyyət üzrə Alt Komissiyaların və Bölmə Keyfiyyət Komissiyalarının Özünütəhlil Hesabatlarının Keyfiyyət Komissiyası tərəfindən müəyyən edilmiş təqvim cədvəlinə uyğun hazırlanması əsas şərtdir.

**Maddə 17. Daxili qiymətləndirmə və hesabatının əhatə dairəsi:**

17.1. Universitetin missiyası, vizyonu və strateji məqsədləri, eləcə də keyfiyyət təminatı üçün siyasət və proseslər,

17.2. Akademik bölmələrin ölçülə bilən hədəflərini, bu hədəflərlə bağlı fəaliyyət göstəriciləri və onların dövri olaraq nəzərdən keçirilməsi,

17.3. İnzibati idarəetmə bölmələrinin ölçülə bilən hədəflərini, bu hədəflərlə bağlı fəaliyyət göstəriciləri və onların dövri olaraq nəzərdən keçirilməsi,

17.4. Proqramların dövlət standarları ilə bağlı və təlim nəticələrinə əsaslanan strukturlaşdırılması və akkreditasiya prosesinin tələblərinin yerinə yetirilməsi üzrə fəaliyyətləri,

17.5. Əvvəlki daxili və xarici qiymətləndirmədə ortaya çıxan və təkmilləşdirilməsi lazım olan sahələr üzrə araşdırmalar daxildir.

**Maddə 18. Kənar qiymətləndirmə prosesi və təqvim:**

18.1. Universitet ən azı 5 (beş) ildə bir dəfə Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən həyata keçiriləcək dövri institusional xarici qiymətləndirmə prosesi çərçivəsində qiymətləndirilməyə borcludur.

18.2. Universitetin kənar qiymətləndirmə təqvimi Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən hazırlanır və elan edilir.

18.3. Universitetin xarici və beynəlxalq akkreditasiyası Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən tanınan və ya təyin edilmiş kənar qiymətləndiricilər və ya Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən Keyfiyyətin Qiymətləndirilməsi üzrə Qeydiyyat Sertifikatı verilmiş müstəqil qurumlar tərəfindən həyata keçirilir.

18.4. İnstitusional/Proqram səviyyəsində akkreditasiya üçün kənar qiymətləndirmə xidməti Keyfiyyətin Qiymətləndirilməsi üzrə Qeydiyyat Sertifikatı olan müstəqil milli və ya beynəlxalq qurum tərəfindən həyata keçirilir və yalnız institusional/proqramla məhdudlaşır.

18.5. Keçirilən kənar qiymətləndirmə nəticəsində müəyyən edilən təkmilləşdirməyə açıq olan aspektlər ilk növbədə Komissiya tərəfindən nəzərə alınır.

**Maddə 19. Xarici qiymətləndirmə hesabatının əhatə dairəsi:**

19.1. Universitetin institusional kənar qiymətləndirilməsi bu prosedur və prinsiplərin 17-ci maddəsində göstərilən əhatə dairəsini və subyektləri əhatə edəcək şəkildə həyata keçirilir.

/

19.2. Xarici qiymətləndirmə institusional/proqram səviyyəsində aparıldığı halda, qiymətləndirmə subyektləri qiymətləndiriləcək bölmənin/proqramın fəaliyyət/xidmət sahəsi ilə məhdudlaşır.

**Maddə 20. Daxili və xarici qiymətləndirmə nəticələrinin ictimaiyyətə açıqlanması:**

20.1. Universitetin daxili və xarici qiymətləndirilməsinin nəticələri ictimaiyyət üçün açıqdır.

20.2. İllik daxili və xarici qiymətləndirmə hesabatları universitetin internet saytında dərc olunur.

**Maddə 21. Keyfiyyətin yüksəldilməsi və keyfiyyət təminatı işləri çərçivəsində xərclər:**

21.1. Universitet tərəfindən bu Əsasnamə çərçivəsində aparılacaq fəaliyyətlərlə bağlı hər cür xərclər müvafiq xidmət üzrə universitet büdcəsindən ayrılacaq vəsait hesabına qarşılanır.

**Maddə 22. Keyfiyyətin təkmilləşdirilməsi və keyfiyyət təminatı fəaliyyətlərinin icrası:**

22.1. Keyfiyyətin təkmilləşdirilməsi və keyfiyyət təminatı bu Əsasnamə çərçivəsində tənzimlənir və həyata keçirilir.

22.2. Keyfiyyətin təkmilləşdirilməsi və keyfiyyət təminatı sahəsində yerinə yetiriləcək bütün iş və fəaliyyətlər Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası və yaradılmış alt komissiyalar tərəfindən həyata keçirilir.

22.3. Keyfiyyətin təkmilləşdirilməsi və keyfiyyət təminatı sahəsində yerinə yetiriləcək bütün iş və fəaliyyətlərə nəzarət rektor tərəfindən həyata keçirilir.

22.4. Keyfiyyətin təkmilləşdirilməsi və keyfiyyət təminatı sahəsində yerinə yetiriləcək bütün iş və fəaliyyətlərə koordinasiyanı Keyfiyyətin Təminatı Mərkəzi həyata keçirir.

## ALTINCI HİSSƏ
## Yekun müddəalar

**Maddə 22. Heç bir müddəanın olmadığı hallar:**

22.1. Bu Əsasnamədə icra və qiymətləndirmə ilə bağlı bir müddəa olmadığı hallarda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 493 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin

akkreditasiyası Qaydaları"nın və digər müvafiq qanunvericiliyin müddəaları tətbiq edilir.

**Maddə 23. Əsasnamənin hökümlüyü:**

23.1. Bu Əsasnamədəki qayda və prinsiplər Gəncə Dövlət Universitetinin Elmi Şurası tərəfindən qəbul edildiyi tarixdən qüvvəyə minir.

23.2. Bu Əsasnamə qüvvəyə mindiyi andan Gəncə Dövlət Universitetinin İnstitusional qiymətləndirməsində və Keyfiyyət Təminatı Sisteminin fəaliyyətində edilən istinadlar bu Əsasnaməyə edilməlidir.

**Maddə 24. İcraya nəzarət:**

24.1. Bu Əsasnaməyə və onun müddəalarıyla ortaya qoyulan fəaliyyətlərə nəzarət Gəncə Dövlət Universitetinin rektoru tərəfindən həyata keçirilir.